UOT-811.521.1
Səhifə: 166-170
https://doi.org/10.59849/2663-8967.2026.2.166

Günəş Mustafayeva
AMEA, Nəsimi adına Dilçilik İnstitutu
iltifatly@gmail.com

OĞUZNAMƏDƏ "TANRI" KONSEPTİNİN ATALAR SÖZLƏRİ MÜSTƏVİSİNDƏ TƏCƏSSÜMÜ

XÜLASƏ

Məqalədə Oğuznamədə "tanrı" konseptinin atalar sözləri müstəvisində təcəssümü araşdırılmışdır. Tədqiqat çərçivəsində Oğuznamədə işlənmiş paremioloji vahidlər təhlil edilmiş, bu vahidlərdə "tanrı" anlayışının semantik, mədəni və idraki xüsusiyyətləri müəyyənləşdirilmişdir. Müəyyən edilmişdir ki, "tanrı" konsepti atalar sözlərində, əsasən ali qüvvə, ədalət və taleyin tənzimləyicisi kimi çıxış edir. Eyni zamanda, bu konsept xalqın dünyagörüşünü, dini inanclarını və etik dəyərlərini əks etdirən mühüm linqvokulturoloji vahid kimi təzahür edir.

Açar sözlər: *Oğuznamə, tanrı konsepti, atalar sözləri, paremiologiya*

Giriş: Ulu babalarımızın dil və təfəkkür incilərini sistemli şəkildə bizə çatdıran, Azərbaycan və türk dilləri tarixini müxtəlif cəhətdən öyrənmək işinə xidmət edəcək çox qiymətli yazılı abidələrdən biri də "Oğuznamə" əsəridir. Oğuznamədə toplanmış atalar sözü və məsəllərin böyük əksəriyyətinin dili tarixən əvvəli dövrlərə – IX-XI əsrlərə aiddir. Bu yazılı abidənin dilində "tanrı" konsepti ilə bağlı olan rəngarəng atalar sözləri işlənmişdir. Onlardan bəziləri "Kitabi-Dədə Qorqud"la oxşarlıq, bəzən də eynilik təşkil edir. Bu mənbədə işlənmiş atalar sözlərində tanrı insanların ümid bəslədiyi, tale müəyyənləşdirən, ən ali məqamda dayanan, qeyb aləmini bilən, qüdrət sahibidir. Mənbəyə nəzər yetirdikdə həm "tanrı", həm də "Allah" kəlimələrinə rast gəlirik. Yazılı abidədə qeyd olunmuş atalar sözlərinə nəzər yetirək:

Allah işün bilür [7, s.22]. Verilmiş cümlə Allahın kainatdakı hər şeyi, görünən və görünməyən bütün detalları, insanların gizlədikləri və ya aşkar etdiyini sözün həqiqi mənasında bildiyini ifadə edir. Burada Allah göylərin və yerin qeybini, iç üzünü bilir. O, həmçinin işin iç üzünü bildiyinə görə, hökm və hikmət sahibidir. Belə ki, başımıza gələn hər bir şeydə qayə və xeyir vardır. Bundan əlavə, insanlar hadisələrin pərdə arxasını bilmədikləri üçün bu ifadə ilə Allahın ədalətinə və hikmətinə güvəndiklərini bildirirlər. Verilmiş ifadədə işlənən "Allah" sözünə nəzərən qeyd etmək olar ki, bu cümlə artıq İslamdan sonraya aiddir.

Allah yüzi yoxsulluğın göstərməsün [7, s.22]. Verilmiş cümlə alqış xarakterini daşıyan bir dua və atalar sözüdür. Bu ifadə ilə insan yoxsulluğun çətinliyindən, ehtiyac içində yaşamağın ağırlığından, başqasına möhtac olma hissindən Allahdan qorunma diləyir. Bu ifadə, həmçinin insanın şükür etməsini və olanın qədrini bilməsini xatırladır.

Allah-təala qullarını qaşıq bir düşmən şərrindən saqlasun [7, s.22]. Alqış xarakterli digər dua və atalar sözü hesab olunan ifadədə Allahın insanları düşmənin şərindən, pisliyindən qoruması istənilir.

Atalar ayıtmış- Həq təala müsəlmanların ğürbətdə xətəlıqdan və yigitlikdə ölümdən və pirligdə yoxsulluqdan saqlasun [8]. Verilmiş nümunə alqış formasındadır. Cümləyə nəzər yetirdikdə məlum olur ki, bu ifadə İslam dinindən sonraya aiddir. Çünki həm «müsəlman», həm də «həq təala» kəlimələri işlənmişdir. Burada müsəlmanlar üçün Allaha müraciət edilir. Müraciətdə qürbətdə xətadan, bəladan, igidlikdə ölümdən, qocalıqda isə yoxsulluqdan uzaq olmaq istənilir.

Allah sağ gözi sol gözə möhtac eyləməsün [7, s.22]. Verilmiş atalar sözü Türkiyə türkcəsində də işlənməkdədir.

Allah öldürmədigin kimsə öldürəməz [7, s.22]. Verilmiş atalar sözü tərbiyəvi və öyrədici funksiya daşıyır. Bu ifadə insanlara qorxu qarşısında təmkinli qalmağı, taleyə təvəkkül etməyə, həyatda baş verən hadisələri ilahi hikmətlə əlaqələndirməyi öyrədir. Bu ifadədə işlənən "öldürmək" feili yalnız fiziki ölüm deyil, bəzən də "təhlükə", "bədbəxt hadisə", "taleyin son nöqtəsi" kimi daha geniş mənaları ifadə edə bilər.

İstəyən tanrısın bulur [1, s.237]. Verilmiş cümlənin mənası belədir ki, əgər insan ürəkdən axtarırsa, səmimi şəkildə haqqı, həqiqəti, yaradanı və Allaha yaxınlığı istəyirsə, onu mütləq tapar.

Ucuzluq səndən, bərəkət Allahdan [1, s.394]. Verilmiş deyim xalq danışıq dilində sosial münasibətləri yumor və etik çərçivədə ifadə etmək üçün istifadə olunur və abidədə də qeyd olunmuşdur. Quruluşca iki hissədən ibarətdir. Birinci hissə (ucuzluq səndən) insan faktorunu göstərir. İkinci hissə (bərəkət Allahdan) isə ilahi iradəni və metafizik səbəbi göstərir. Mənası budur ki, sən qiyməti aşağı et, qazancın və xeyrin isə Allahdan gəlsin. Bu deyim ənənəvi bazar münasibətlərini özündə əks etdirir. Burada iki prinsip göünür. Bunlardan biri ticarət etikasıdır və burada satıcının müştəriyə güzəşt etməsi gözlənilir. İkinci prinsip isə mənəvi iqtisadiyyatdır və burada qazancın həqiqi bolluğu yalnız maddi deyil, bərəkət anlayışı ilə ölçülür. İfadədə teoloji konsepsiya mövcuddur. Belə ki, insan səbəb yaradır, yəni ucuzluq edir, nəticənin xeyirli olması isə lahi iradə ilə əlqələndirilir. Bu İslam mədəniyyətindəki səbəb-təvəkkül prinsipi ilə uyğunlaşır.

Eşəgün dişini, kosanın yaşını, Allahın işini yenə Allahdan qeyri kimsə bilməz [1, s.157]. Verilmiş atalar sözü insanın məhdud biliyini və Allahın elminin sonsuzluğunu vurğulayır. Buradan həm də belə fikirlər çıxarmaq olar ki, bəzi şeylər var ki, insan onları dəqiq bilə bilməz və ya tale, qismət, gizli hikmətlər və Allahın planı insanın anlayışlarından, düşündüklərindən kənardır. Həmçinin, yalnız Allah hər şeyi tam bilir.

Ata-ana verdügi könüllü tanrı verdügi doyumluqdur [1, s.53]. Məsəldə tanrı obrazının türk mifoloji düşüncəsində hər şeydən ucada durduğu inamı tam yəqinləşir. Tanrı insana nə verirsə, tam verir. Söhbət burada imkandan və gerçəkləşən ömürdən gedir. Təsəvvür etmək olur ki, tanrı obrazı ilə bağlı ağıldakı qənaət Allahçılıq (İslamçılıq) dönəmində nisbətən fərqli ifadə oluna bilərdi. Məsəlin ilkin biçiminin necə olduğunu təxmin etmək çətindir, ancaq islamçılıq dönəmində «tanrı» adının işlənməsi əski düşüncənin ağıllarda oturuşduğunun göstəricisi kimi nəzərə alına bilər

Ötən qüdrət oyunıdır, bilməyənə qaz gəlür,

Tanrının nəimətü çoq, bilməyənə az gəlür [1, s.341]. Məsəlin mayasında Türk tanrıçılığı ilə İslam allahçılığının ortamı var. Belə ki, türk tanrıçılığında dünya yaradılışında iştirak edən əcdad özü hər şeyin mahiyyətcə yiyəsidir. Bir tərəfdən tanrı nemətlərinin çoxluğunu görmək, şikayət etməmək düşüncəsi, başqa tərəfdən nə varsa, insanın nəyə əli, imkanı çatırsa, dinsayağı «şükür etmək» ölçüsü görünür.

Ümməti-Məhəmmədin qonuğu sapmasun [1, s.398]. Alqış, dua xarakterli verilmiş bu ifadədə sözlərin iştirakından da məlumdur ki, İslam dinindən sonraya aid bir cümlədir. Burada "Ümməti-Məhəmməd" dedikdə İslam peyğəmbərinin ümməti, yəni müsəlmanlar nəzərdə tutulur. "Qonuğu sapmasun" dedikdə isə, "yolunu azmaq", "haqq yolundan uzaq düşmək", "doğru yoldan dönmək" kimi mənalar başa düşülür.

Ər əri sınar, münafiq tanrıyı sınar [1, s.175]. Buradakı "münafiq" sözü ərəbcədən gəlir, mənası "kafirlərin ən pis olanı"dır. Ərin əri (kişini - türk döyüşçüsünü) sınaması doğal (təbii) sayılmalıdır, ancaq münafiqin tanrını (burada Allahı) sınaması uyğun sayılmır. Göründüyü kimi, çağın düşüncəsindəki İslamdan gələn Allah obrazı tanrı kimi təqdim olunur. Əslində Allah obrazı artıq əvəzedici kimi ağıla oturmaqdadır, kafirin Allahı sınamasının əhəmiyyətsizliyinə məsəldə işarə var.

Adlu kişi adından qorqar, adsız kişi tanrıdan qorqmaz [1, s.25]. Qədim məsəl olduğu görünür. Adlı kişi türk ənənəsinə xas olaraq igidliyinə görə adlanandır, deməli, həyatı görən, dərk edəndir. Adlı kişinin adından qorxması burada məsuliyyətini bilməsidir. Məsəldəki "qorxmaq" gerçək ağıldakı mənanı vermir. "Adsız kişinin tanrıdan qorxmaması" məsuliyyətsizliyinə işarədir, yəni "Kitabi-Dədə Qorqud"da olduğu kimi 15 yaşında belə ad almayan, əslində ərlik məqamına

yetməyəndir. Əcdad düşüncəsində tanrıdan çəkinmək özündən çəkinmək mənasındadır. Türk mifoloji düşüncəsində tanrı türk insanının özüdür; Əcdad tanrı ilə üz-üzə qalır, onu anlamağa çalışır, anladıqca var olur.

Boğaz tanrı yarlığasın deməz [1, s.89]. Məsəldə tanrının səxavətcilliyinə, əksinə, insanın bunu anlamamasına işarə var. Ancaq göründüyü kimi, fikirdə ironiya yoxdur, nankorluğa görə cəza nəzərdə tutulmur. İnsanın həyatı anlaması, təbiətdən bəhrələnməsi iç-içə olduğundan Türkün tanrısına ərki var. Bu ərk təbii bir proses kimi ömürləşir, onu hər şeydə məsuliyyətli olmağa kökləyir. tanrı - insan münasibətlərini anlamayanlar özünü bilməyənlər hesab edilir.

Bin il yerdə yatmaqdan bir kərə.

Peyğəmbərə salavat gətürmək yegdir [1, s.78]. Verilmiş ifadə salavatın fəzilətini vurğulayır və insanı peyğəmbərə sevgi və ehtiram göstərməyə təşviq edir.

Bəglər xəşmi tanrı xəşmindən artıqdır. "Xəşm" acıq, qəzəb mənalarını ifadə edir. Bu düşüncə tanrının halında qəzəbin o qədər də çox olmadığını göstərir. Buradan da əcdadın tanrıya münasibəti tam təsəvvür olunur. Türk insanının özünə, başqasına münasibəti - yanaşması onun tanrısına münasibətini formalaşdırır, yəni tanrı onun dünyaya, həyata, özünə münasibətinin ifadəçisi kimi anlaşılır, insanların davranış örnəyi olur.

Tanrı bir, iş iki [1, s.379]. İşin mahiyyətini bilən qayğının həllini də tapır. Əcdad düşüncəsində nə tələsməmək, nə də gecikməmək əhvalı olub, potensiya, habelə qabiliyyət kimi indi də şübhəsiz, var. O deməkdir ki, tanrıya tapınan türk müasir düşüncədə yaşayan məsəli xatırlatsaq, "Allah deyir, səndən hərəkət, məndən bərəkət" prinsipini əsas götürür. Əslində bunun da kökündə tanrçılıq izlərini tapmaq mümkündür. Yəni, məsəldə tanrı ilə danışa bilmək ərki var.

Tanrıyı göz ilə görmüş kimsə yoq, əqllə bulurlar [1, s.380]. Məsəldə türk tanrıçılığının xarakteri açılır. Dünyanın, Həyatın, İnsanın mahiyyətinin əqllə, əslində Ruhla dərk olunması fitrət işidir. Əcdadın o çağın ağıl imkanları ilə dünyanı qavraması duyumludur, ibdidai göründüyü dərəcədə məntiqlidir. Təəssüf ki, tanrıçılıqdan sonrakı mərhələlərdə (Zərdüştlükdən sonra) dünya qavramı ilə bağlı axtarışlar yeni bir dünyabaxış ölçüsündə aşkarlanmadı.

Tanrı nişan urduğı quldan qorqmaq gərək [1, s.379]. Tanrının insanı qul sayması məsələsi İslam tanrıçılığından, əslində Allahçılığından gələn düşüncədir. Türk düşüncəsində tanrıya qul olmaq yox, tanrıyla bir olmaq, tanrılaşmaq xarakteri, düşüncədə imkan var. "Tanrı nişan urdığı quldan qorqmaq" – tanrının (burada Allahın) həmin şəxsi himayə etməsi anlamına gəlir. Qədim türk düşüncəsində tanrının insanı himayə etməsi düşüncəsi var. Seçilmiş insanlar dedikdə daha çox hakimiyyət adamları nəzərdə tutulurdu. Habelə düşüncə adamları, saf, təmiz yaşamış, insanların yaddaşında iz qoymuşların da tanrının himayəsində olduğu düşünülürdü. İnsanın bu və ya başqa səviyyədə durumunun tanrı nəzarətində olduğu, yetdiyi uğurlara görə tanrının rolu olduğu düşünülürdü.

Haq təala bəhanə tanrısıdur: hər kişiyə layiqlü layiqin verər [1, s.202]. Verilmiş cümlə ədalət və məsuliyyət fikrini vurğulayır. Yəni, insan nə edirsə, qarşılığını görür. Burada işlənin "bəhanə tanrısıdır ifadəsi" o deməkdir ki, Allah insanların bəhanəsinə deyil, gerçək əməlinə və niyyətinə görə hökm verər. Bu deyimdən belə nəticə çıxarmaq olar ki, Allah ədalətlidir, o, heç kimə ədalətsizlik, haqsızlıq etmir. Həmçinin, hər insan öz əməlinə, niyyətinə və layiq olduğuna görə qarşılıq alır.

Davacın danişməd isə, yarıcın Allah olsun [1, s.118]. Verilmiş atalar sözü, həmçinin "Durubı-emsal" başlığı altında qeyd olunanlar içərisində də vardır. Sadəcə, bəzi sözlər fərqlidir. Belə ki, orada "danişməd" sözü əvəzinə "kadı" kəliməsi işlənmişdir. Verilmiş atalar sözü, həmçinin A.Marağayinin Əmsali-Tarkanə əsərində də qeyd olunmuşdur. Sadəcə burada danişməd sözü əvəzinə qazi sözü işlənmişdir. [1, s.470]

Dost əskiyəcək tanrı yenisin verür [1, s.139]. Verilmiş ifadə ümid və müsbət düşüncəni özündə ehtiva edir. Belə ki, bu cümlə insanlara bildirir ki, həyatdakı itkilərson deyil, Allah hər boşluğu yeni nemətlərlə doldura bilər.

Sovuq peyğəmbərə hörmət etməmişdir [1, s.364]. Məsəldə təbiətin insandan asılı olmayan qanunlarına işarə var. Bu qənaətin İslam Allahçılığı dönəmində yarandığı aydındır. Türk düşüncəsində Təbiətlə bir olmaq var. Bu, özünü bir çox mətnlərdə göstərir.

Toğruya Allah yardımçı [1, s. 388]. Doğrunun yardımçısı Allahdır. Bu atalar sözü Türkiyə türkcəsində də işlənir. Bu məsəl yuxarıdakı qənaəti bir daha təsdiq edir. Ancaq «Allah» məzmunu məsəlin İslam Allahçılığı dönəmində tanrı məzmunundan çıxarıldığını, əvəzləndiyini göstərir.

Eyibsiz bir Allah [1, s. 164]. Verilmiş nümunə daha çox Allahın vəsfidir. Məsəlin İslam sonrası daha da cilalandığı, normalaşdığı təxmin edilə bilər. Türk mifoloji düşüncəsində tanrının dəyişməzliyi, güzəştsizliyi türk xarakterinə bağlıdır. Əcdad tanrısını özünün xarakterinə uyğun təsəvvür edib.

Ğeybi Allahdan ğeyri kimsə bilməz [1, s.282]. Qeyb biliklərinin yalnız Allaha məxsus olması ideyası İslma düşüncəsində fundamental prinsiplərdən biri kimi çıxış edir. Bu baxımdan, qeyb aləminə dair məlumatın Allahdan başqa heç bir varlıq tərəfindən bilinməməsi ilahi mütləqliyin və sonsuz elmin ifadəsi kimi dəyərləndirilir. Qeyb insanın gözlə görmədiyi, təcrübə ilə bilmədiyi, yalnız ilahi biliklə məlum olan sahədir.

Ğəribin kimsəsi yoq, Allahı vardır [1, s.281]. Bu atalar sözü xalqın dünyagörüşündə ilahi ədalət və mərhəmət ideyasını əks etdirir. Bu paremiloji vahiddı sosial baxımdan tənha və dəstəksiz qalan insanın əslində sahibsiz olmadığı vurğulanır. Onun ən böyük dayağı və qoruyucusu Allahdır. Verilmiş ifadə, eyni zamanda, çətinlik qarşısında ümidsizliyə qapılmamaq, ilahi ədalətə və mərhəmətə inanmaq fikrini tələqin edir və xalqın dini-etnik təfəkküründə tanrıya bağlılığın mühüm yer tutduğunu göstərir.

Kölənin, qaravaşın tanrısı çomaqdır/ qulun, qarvaşın tanrısı çomaqdır [1, s.262]. Verilmiş məsəldə kölə, qaravaş sayılanın çomaqla ağıllandırılması, cəzalandırılması nəzərdə tutlur.

Vay ol kişiyə kim, Allahdan inayət olmaya [1, s.403]. Verilmiş atalar sözü insan həyatında ilahi lütf və mərhəmətin həlledici rolunu vurğulayır. Bu paremioloji vahiddə ifadə olunur ki, Allahın inayətindən məhrum olan insan həm mənəvi, həm də maddi baxımdan uğursuzluğa düçar ola bilər. İfadənin semantik strukturunda ilahi dəstəyin insan taleyində əsas müəyyənedici amillərdən biri olduğu ideyası ön plana çıxır. Beləliklə, atalar sözü insanları Allaha bağlılığa və ilahi mərəhmətə sığınmağa çağıran didaktik məzmun daşıyır.

Yalnızlıq bir Allaha yaraşır/ Təklik Allaha yaraşır [1, s.414]. Verilmiş atalar sözü insanın sosial varlıq kimi təbiətini və kollektiv həyatən zəruriliyini vurğulamaqla yanaşı, «tanrı» konseptinin mütləqliyini ifadə edir. Bu paremioloji vahiddə yalnızlığın kamil və müstəqil varlıq kimi yalnız Allaha məxsus oluğu ideyası ön plana çıxır. İnsan isə öz növbəsində ictimai münasibətlər sistemi daxilində mövcud olan və başqalarına ehtiyac duyan bir varlıq kimi təqdim olunur. Beləliklə, ifadə həm teoloji baxımdan tanrının müstəqil və ehtiyacsız mahiyyətini, həm də antropoloji baxımdan insanın sosial bağlılıq ehtiyacını özündə əks etdirir.

Nəticə: Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Oğuznamədə "tanrı" konsepti atalar sözləri müstəvisində sistemli və çoxşaxəli şəkildə təcəssüm edir. Paremioloji vahidlərin təhlili göstərir ki, bu konsept yalnız dini məzmun daşımır, eyni zamanda xalqın dünyagörüşünü, etik normalarını və sosial-mədəni dəyərlərini əks etdirən mühüm idrak strukturu kimi çıxış edir. Tədqiqat zamanı aydın olmuşdur ki, "tanrı" konsepti atalar sözlərində əsasən ali qüvvə, ədalət prinsipi və taleyin tənzimləyicisi kimi semantik çalarlar qazanır. Bu isə göstərir ki, Oğuznamədə formalaşmış paremioloji sistemdə "tanrı" anlayışı yalnız teoloji çərçivədə deyil, həm də linqvokulturoloji və idrak müstəvisində mühüm yer tutur. Eyni zamanda müəyyən edilmişdir ki, "tanrı" konseptinin paremioloji ifadəsi qədim türk düşüncə tərzinin, mifoloji təsəvvürlərinin və dini inanclarının sintezi kimi çıxış edir. Bu konsept vasitəsilə insan–cəmiyyət–ali qüvvə münasibətləri ümumiləşdirilmiş şəkildə ifadə olunur və nəsildən-nəslə ötürülən mənəvi kod kimi fəaliyyət göstərir.

Ədəbiyyat siyahısı

1. Atalar sözləri / tərt. ed. M. Yaqubqızı – Bakı: Nurlan, – 2013. – 476 s.
2. Bəydili C. Azərbaycan türk atasözləri/ C. Bəydili. – Bakı: Elm və təhsil, – 2025. 352 s.
3. Bəydili, C. Türk mifoloji sözlüyü / C. Bəydili. – Bakı: Elm, – 2003. – 418 s.
4. Əsgərova, A. Oğuznamənin dili / A. Əsgərova. – Bakı: Təhsil NPM, – 2011. – 207 s.
5. Hüseynzadə, Ə. Oğuznamə metodologiyasında mənəvi irs // Bakı: ADU Elmi xəbərlər, – 2019. – s. 16-20.
6. Məmmədova, S.C. Oğuz türklərinin mənəvi mədəniyyət leksikası: / dilçilik üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, – 2021. – 32 s.
7. Oğuznamə. / tərt. ed. S. Əlizadə – Bakı: Şərq-Qərb, – 2006. – 216 s.
8. https://www.turkustan.az/news/authors/126885

Gunash Mustafayeva

"The representation of the concept of 'God' in the book of oghuzname at the level of proverbs"

Abstract

The article examines the representation of the concept of "God" in the proverbs of the Oghuzname. Within the framework of the research, paremiological units found in the Oghuzname are analyzed, and the semantic, cultural, and cognitive features of the concept of "God" are identified. It is determined that the concept of "God" in proverbs primarily appears as a supreme power, a symbol of justice, and a regulator of destiny. At the same time, this concept functions as an important linguocultural unit reflecting the worldview, religious beliefs, and ethical values of the people.

Keywords: *Oghuzname, concept of God, proverbs, paremiology.*

Гюнеш Мустафаева

Репрезентация концепта "Бог" в "Огузнаме" на уровне пословиц"

Аннотация

В статье исследуется воплощение концепта «Бог» в пословицах «Огузнаме». В рамках исследования проанализированы паремиологические единицы, выявлены семантические, культурные и когнитивные особенности концепта «Бог». Установлено, что в пословицах данный концепт выступает как высшая сила, символ справедливости и регулятор судьбы. Вместе с тем он проявляется как важная лингвокультурная единица, отражающая мировоззрение, религиозные представления и этические ценности народа.

Ключевые слова: *Огузнаме, концепт Бог, пословицы, паремиология*

Çapa tövsiyə edən: ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***fil.e.d,dosent B.Məhərrəmli***
fil.ü.f. D.Camali